## Xalq Parlamentinin 2-ci dönəm sədri Namizəd Səfərovun həbsi ilə bağlı

millət vəkili Qurban Məmmədovun məruzəsi

Hörmətli Sədr, hörmətli Millət Vəkilləri!

Namizəd Səfərovun 09 dekabr 2025-ci ildə saxlanması, haqqında Bakı şəhəri Xətai rayon məhkəməsi tərəfindən 4 aylıq həbs qətimkan tədbiri seçilməsi Azərbaycanda siyasi təqiblərin növbəti ağır nümunələrindən biridir.

Ona görə "növbəti" deyirəm ki, ölkəmizdə heydərizm rejimi mövcud olduqca belə həbslər davam edəcək.

Ona görə "ağır nümunələrindən biri" deyirəm ki, Namizəd Səfərov sıradan bir şəxs, cəmiyyətin çoxluğu kimi yalnız öz həyatını yaşayan, ətrafında baş verənlərə laqeyd olan, ölkədəki problemlərə münasibətdə tərəfsiz qalan adam deyil.

O sözün əsl mənasında ziyalıdır. yeri gələndə haqqı, asta səslə, lakin eşidilən formada deməyi bacaran həqiqi ziyalıdır.

Namizəd bəy dövlətin də, cəmiyyətin də problemlərini yaxşı bilir. Çünki savadlı hüquqşünasdır, uzun müddət hüquq müdafiəsi ilə məşğul olub, ölkəmizdə insan hüquqlarının vəziyyətini yaxşı bilir.

Ancaq o təkcə vətəndaşların hüquqsuzluğunu, məhkəmələrdəki, istintaq orqanlarındakı, dövlət müəssisələrindəki süründürməçilik və özbaşınalığı yox, həm də xalqın maddi durumunu, iqtisadi-sosial problemlərini yaxşı bilir.

Bütün bunları isə təkcə Namizəd Səfərov bilmir. Bilənlər çoxdur. Ancaq deyə bilərsizmi, bildiklərini Namizəd Səfərov kimi dilə gətirən, həm də bunu yerində, məqamında və lazım olan formada dilə gətirən, danışan, etiraz edən neçə ziyalımız, hüquqşünasımız var? Bilirəm ki, bu ritorik sualın cavabı hamıya bəllidir: barmaqla sayılası qədər az.

Namizəd Səfərov Heydər oğlu 01.10.1955-ci ildə doğulub. Ömrünün 71-ci ilini yaşayır. Ailəlidir. Uzun müddət vəkillik fəaliyyəti ilə məşğul olub. Həm də sadəcə, sıradan bir vəkil olmayıb, 1994-cü ilin may ayında, mənimlə eyni vaxtda, Vəkillər Kollegiyasının Rəyasət Heyətinin üzvü seçilib və ölkəmizdə vəkillik institutunun inkişafında böyük rol oynayıb.

Rejimin siyasətinə uymadığı üçün, ölkədəki rejimi sistemli və ardıcıl olaraq tənqid etdiyi üçün, Vəkillər Kollegiyasının rəhbəliyinin qanunsuz fəaliyyətini ifşa etdiyi üçün Namizəd Səfərov 2005-ci ildə vəkillikdən uzaqlaşdırıldı.

Namizəd bəy, hüquq-müdafiə fəaliyyəti ilə, siyasi fəaliyyəti bir arada tuta bilən azsaylı hüquqşünas-siyasətçilərdəndir.

O, müxtəlif vaxtlarda, müxaliv mövqeli təşkilat və partiyaların qurduğu siyasi birliklərdə təmsil olunub, ölkənin siyasi həyatında daim fəal iştirak edib.

Namizəd Səfərov Xalq Parlamentinin yaradılmasında fəal iştirak edib və 2024-cü ildən Parlamentimizin üzvü, onun 2-ci dönəm sədridir.

Namizəd Səfərovun Azərbaycan hakimiyyəti tərəfindən siyasi motivlərlə həbs edilməsi təkcə bir şəxsin azadlığının məhdudlaşdırılması deyil, Azərbaycanda demokratik institutların sistemli şəkildə sıradan çıxarılmasının növbəti bariz nümunəsidir.

Namizəd Səfərov adı artıq təkcə bir şəxsin adı deyil. Bu ad Azərbaycanda bu gün boğulan azadlığın, susdurulan vicdanın adıdır.

Namizəd Səfərov əlində silahla bu rejimə qarşı mübarizə aparmadı, başqalarını da zorakılığa dəvət etmədi, xalqa divan tutan rejimə qarşı belə nifrət yaymadı, o yalnız danışdı, asta səslə həqiqətləri söylədi və məhz buna görə də həbs edildi.

Bu gün o dəmir barmaqlıqlar arxasındadır. Amma qoy heydərizm rejimi bilsin: dəmir barmaqlıqlar həqiqəti saxlaya bilməz. Həqiqət isə bundan ibarətdir: Azərbaycanda dövlət hakimiyyəti qanunsuz üsullarla, silah gücünə zəbt edilib, xalqın iradəsi zorlanıb, rejim saxta seçkilər və cəmiyyətdə yaratmaq istədiyi total qorxu və xofla ömrünü uzatmağa çalışır.

Namizəd Səfərov məhz bu həqiqtələri dediyi üçün, xüsusilə də, Xalq Parlamentini parçalanmaqdan qoruduğu, Parlamentin məkrli insanlar tərəfindən dağıdılmasının qarşısını aldığı üçün bu gün həbsdədir.

Namizəd Səfərov şəxsiyyəti çoxlarını narahat edir. Çünki o, uzun illər Azərbaycan cəmiyyətində ictimai etimad qazanmış, hüquqi dövlət, insan hüquqları və xalq iradəsinin üstünlüyü ideyalarını dinc mübarizə vasitələri ilə  müdafiə etmənin nümunəsini  xalqa göstərən siyasi xadimlərdəndir.

Namizəd Səfərovun siyasi fəaliyyəti klassik hüquqi-siyasi düşüncə, milli maraqlar və beynəlxalq hüquq prinsiplərinə hörmət üzərində qurulub. Onun bütün çıxışları, bəzən hətta çılğıncasına ifadə etdiyi siyasi mövqeyi dərin analitik yanaşma və yüksək siyasi mədəniyyət nümayişinə çevrilib. Gəncliyə nümunə olduğu kimi, o öz davranışı ilə bir çox saxta rejim trollarını da ifşa edib. O, ifşa etdiyi adamların adını çəkmir. Çox böyük ustalıqla, özü doğru yolla getməklə kimlərinsə səhf yolda olduğunu xalqa açıqca göstərə bilir. Bizim Xalq Parlamentinə qarşı törədilən son təxribatlarda onun tutduğu mövqe bu dediklərimin bir daha sübutudur.

Namizəd Səfərov yalnız ictimai və siyasi fəaliyyətlə məşğul olmaqla qalmır, eyni zamanda, insanlara onların hüquq və vəzifələrinin öyrədilməsində, xalqın hüquqi maariflənməsində ardıcıl fəaliyyət göstərir. Onun son illər tək AzerFreedom TV kanalındakı çıxışları böyük bir institutun işinə bərabərdir. O bu çıxışları ilə təkcə xalqı maarifləndirməklə qalmır, həm də gənclərimizdə, eləcə də təcrübəli siyasətçilərimizdə  siyasi məsuliyyət hissinin

formalaşmasında öz töhfələrini verir. **Siyasi məsuliyyət** sahəsində onun dəfələrlə ortaya qoyduğu davranış nümunələri siyasi elmərlə məşğul olan alimlərimizin gələcəkdə tədqiqat obyektinə çevriləcəkdir. Gələcək nəsillər ondan faydalanacaqdır.

Mən böyük qürur hissi ilə qeyd edirəm ki, Namizəd Səfərov mənim də üzvü olduğum Azərbaycan Xalq Parlamentinin ikinci dönəm sədri kimi xalqın siyasi iradəsinin alternativ ifadə forması olan bu platformaya - bizə rəhbərlik edir. Onun və Xalq Parlamentinin bu fəaliyyəti dinc xarakter daşısa da, bu fəaliyyət Azərbaycanın avtoritar hakimiyyəti tərəfindən təhlükə kimi qəbul edildi və Namizəd bəy məhz buna görə bu gün həbsdədir.

Bir hüquqşünas, peşəkar vəkil kimi deyirəm, Namizəd Səfərovun saxlanması və həbsi zamanı Avropa Konvensiyasının 5-ci maddəsində nəzərdə tutlan "azadlıq və toxunulmazlıq hüququ, 6-cı maddəsində nəzərdə tutulan "ədalətli məhkəmə hüququ" kobud şəkildə pozulub. Ona qarşı irəli sürülən ittihamlar sübuta əsaslanmır  və siyasi xarakter daşıyır.

Hörmətli millət vəkilləri.

Mən burada qanunlarımızın, xüsusilə də Cinayət Prosessual Məcəlləsinin çoxsaylı maddələrinə istinad edərək sizi və ekran qarşısında bizi izləyən seçicilərimizi yormaq istəmirəm. Ancaq Namizəd Səfərovun həbsinin tam siyasi xarakterli olmasını sübut etmək üçün diqqətinizə Cinayət Prosessual Məcəlləsinin 2 maddəsini çatdırmağı zəruri hesab dirəm.

Cinayət Prosessual Məcəlləsinin 148.2.-ci və 148.3.-cü maddəsinə əsasən, şəxs yalnız :

1. cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törədərkən, yaxud bilavasitə bundan sonra cinayət başında yaxalandıqda;
2. zərər çəkmiş, yaxud hadisəni görən digər şəxslər cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin həmin şəxs tərəfindən törədilməsini birbaşa göstərdikdə;
3. şəxsin bədənində, üstündə, paltarında və ya istifadə etdiyi digər əşyalarda, yaşayış yerində, nəqliyyat vasitəsində cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin törədilməsini göstərən aşkar izlər müəyyən olunduqda"
4. hadisə yerindən qaçıb gizlənməyə, yaxud cinayət prosesini həyata keçirən orqandan gizlənməyə cəhd göstərdikdə;
5. daimi yaşayış yeri olmadıqda və ya başqa ərazidə yaşadıqda;
6. şəxsiyyəti müəyyən edilmədikdə  tutula bilər.

Cinayət Prosessual Məcəlləsinin 155-ci maddəsinə əsasən, isə,  "Qətimkan tədbirləri müvafiq təhqiqatçı, müstəntiq, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror və ya məhkəmə tərəfindən o hallarda tətbiq oluna bilər ki, cinayət təqibi üzrə toplanmış materiallar şübhəli və ya təqsirləndirilən şəxs tərəfindən aşağıdakı hərəkətlərin edilməsi ehtimalına kifayət qədər əsas versin:

1. cinayət prosesini həyata keçirən orqandan gizlənmək;
2. cinayət prosesində iştirak edən şəxslərə qanunsuz təsir göstərməklə, cinayət təqibi üzrə əhəmiyyət kəsb edən materialları gizlətməklə və ya saxtalaşdırmaqla ibtidai istintaqın və ya məhkəmə baxışının normal gedişinə mane olmaq;
3. cinayət qanunu ilə nəzərdə tutulmuş əməli yenidən törətmək və ya cəmiyyət üçün təhlükə yaratmaq;
4. cinayət prosesini həyata keçirən orqanın çağırışlarına üzrlü səbəblər olmadan gəlməmək və ya digər yolla cinayət məsuliyyətinə cəlb edilməkdən və cəza çəkməkdən boyun qaçırmaq;
5. məhkəmə hökmünün icra edilməsinə maneə törətmək.

Qanunda göstərilən bu əsasların heç biri Namizəd bəyin işində mövcud deyil.

Cinayət Prosessual Məcəlləsinin 155.2.-ci maddəsinə əsasən, "Qətimkan tədbirinin seçilməsinin zəruriliyi və onlardan hansının konkret şübhəli və ya təqsirləndirilən şəxsə tətbiq edilməsi məsələsi həll edilərkən təhqiqatçı, müstəntiq, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror və ya məhkəmə aşağıdakıları nəzərə almalıdır:

155.2.1. şübhəli və ya təqsirləndirilən şəxsə istinad edilən əməlin ağırlığını, xarakterini və törədilmə şəraitini;
155.2.2. şübhəli və ya təqsirləndirilən şəxsin şəxsiyyətini, yaşını və səhhətini, məşğuliyyət növünü, ailə, maddi və sosial vəziyyətini, o cümlədən himayəsində şəxslərin və daimi yaşayış yerinin olmasını;
155.2.3. əvvəllər cinayətin törədilməsini və qətimkan tədbirinin seçilməsini;
155.2.4. şübhəli və ya təqsirləndirilən şəxsin zərərçəkmiş şəxslə və ya onun yaxın qohumu olan hüquqi varisi ilə barışıq əldə edib-etməməsini, cinayət nəticəsində vurulmuş ziyanın ödənilib-ödənilməməsini və digər əhəmiyyətli halları.

Namizəd Səfərov 71-ci yaşındadır, ürəyində problem olduğu hamıya bəllidir, daimi yaşadığı yer var və ünvanı hüquq-mühafizə orqanlarına məlumdur, əvvəllər cinayət törətməyib, heç inzibati məsuliyyətə də cəlb edilməyib və sairə.

Hörmətli millət vəkilləri və bizi ekran qarşısında izləyən vətəndaşlar.

Namizəd Səfərovun həbsinin siyasi olduğunu, məhz Xalq Parlamentinin sədrlərindən biri kimi Xalq Parlamentinə qarşı rejimin törətdiyi təxribatın qarşısını aldığına görə həbs edildiyini sübut edən bir fakta diqqətinizi xüsusilə yönəltmək istəyirəm.

Cinayət Prosessual Məcəlləsinin 154-cü maddəsində qətimkan tədbirlərinin 10 (on) növü göstərilir. Onlardan doqquzu əsas qətimkan tədbiridir, biri isə, "vəzifədən kənarlaşdırma" həm əsas, həm də əlavə qətimkan tədbiri kimi, yəni əvvəlki doqquzu ilə birlikdə tətbiq edilə bilər.

Namizəd Səfərova tətbiq edilən həbs qətimkan tədbiri haqqında Cinayət Prosessual Məcəlləsində düzünə göstəriş var. Cinayət Prosessual Məcəlləsinin 155.3.-cü maddəsində deyilir: 155.3. Həbs qətimkan tədbiri yalnız aşağıdakı şəxsə tətbiq oluna bilər:

1. 155.3.1. bu Məcəllənin 155.1.1-155.1.3-cü maddələrində nəzərdə tutulmuş hərəkətlərin, (yəni 155.1.1. cinayət prosesini həyata keçirən orqandan gizlənmək; 155.1.2. cinayət prosesində iştirak edən şəxslərə qanunsuz təsir göstərməklə, cinayət təqibi üzrə əhəmiyyət kəsb edən materialları gizlətməklə və ya saxtalaşdırmaqla ibtidai istintaqın və ya məhkəmə baxışının normal gedişinə mane olmaq; 155.1.3. cinayət qanunu ilə nəzərdə tutulmuş əməli yenidən törətmək və ya cəmiyyət üçün təhlükə yaratmaq;) qarşısını almaq məqsədi ilə, 2 (iki) ildən artıq müddətə azadlıqdan məhrum etmə növündə cəza təyin edilə bilən cinayətin törədilməsində ittiham olunan şəxsə;

2. 155.3.2. cinayət prosesini həyata keçirən orqandan gizlənməsinin qarşısını almaq məqsədi ilə, 2 (iki) ilədək müddətə azadlıqdan məhrum etmə növündə cəza təyin edilə bilən cinayətin törədilməsində ittiham olunan şəxsə;
3. 155.3.3 əvvəllər seçilmiş digər qətimkan tədbirinin şərtlərini pozmuş şəxsə və ya hökmün icrasını təmin etmək məqsədilə, barəsində azadlıqdan məhrum etmə növündə cəza təyin edilmiş şəxsə.

Hörmətli millət vəkilləri və sayqıdəyər seçicilər, Namizəd Səfərovun haqqında həbs qətimkan tədbirinin seçilməsi üçün Cinayət Prosessual Məcəlləsinin 155.3.-cü maddəsində göstərilən əsasların heç biri yoxdur.

Bu da bir daha sübut edir ki, Namizəd Səfərov məhz AzərbaycanXalq Parlamentindəki fəaliyyətinə görə, Xalq Parlamentinə qarşı rejimin təxribatının qarşısını aldığına görə qəzəbə gəlib və şərlənərək həbs edilib.
**O siyasi məhbusdur.**

Namizəd Səfərovun həbsi onun ailəsinə, yaxınlarına və siyasi əqidə yoldaşlarına təzyiq kimi qiymətləndirilməlidir.

Bundan sonra Namizəd Səfərovun sağlamlığında yarana biləcək bütün problemlərin məsuliyyəti rejimin üzərindədir.

Biz imkan verməməliyik ki, heydərizm rejimi, Əvəz Zeynallı kimi, ikinci bir xalq adamının da həyatına qəsd etsin, onun sağlamlığını təhlükəyə atsın. Çünki, həbs şəraiti onun səhhəti üçün ciddi risklər yaradır. Azərbaycan həbsxanalarında tibbi xidmətin qeyri-kafi olması bu riski daha da artırır.

Sonda bir daha bəyan edirəm ki, Namizəd Səfərov Avropa Parlamentinin və Avropa Məhkəməsinin müəyyən etdiyi vicdan və siyasi məhbus kriteriyalarına əsasən, siyasi məhbusdur və onun həbsi Avropa İnsan Hüquqları Konvensiyasına və BMT sənədlərinə ziddir.

Sonda xalqımıza səslənmək istəyirəm:

"Unutmayın! Biz susduqca repressiya güclənir. Biz danışdıqca azadlıq yaxınlaşır. Namizəd Səfərov azad edilməlidir. Çünki azadlıq cinayət deyil!"

Təklif edirəm ki, Namizəd Səfərovun qanunsuz həbsi ilə bağlı Parlamentin adından bəyanat qəbul edilsin və beynəlxalq təşkilatlara çatdırılsın.

Diqqətinizə görə təşəkkür edirəm.

13.12.2025-ci il London.